# Qayğıya görə minnətdarıq



Ulu öndər Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyası onun siyasi kursunun layiqli varisi Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Son illər bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial ödənişlərin, əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır. Sosial sahəyə böyük diqqət göstərən dövlət başçısı cənab İlham Əliyev demişdir: "Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir". Bunun nəticəsidir ki, ölkəmiz hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü siyasətə malik olan bir dövlətə çevrilib.

Ölkədə aparılan uğurlu siyasətin əsasında Azərbaycan vətəndaşı və onun rifahının təminatı prinsipi dayanır. Bu prinsip iqtisadi artımların ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" 2021-ci il 16 oktyabr tarixli Sərəncamı ölkədə sosial islahatların uğurlu nəticəsi, diqqət və qayğının bariz nümunəsidir. Bu sərəncamla ölkəmizdə minimum əməkhaqqı, həmçinin müxtəlif sahələrdə çalışanların maaşları artırıldı. Sərəncama əsasən, artımlar 2 milyondan çox əhalini əhatə edəcək. Gələn ilin əvvəlindən minimum əməkhaqqı 250 manatdan 300 manata çatdırıldı ki, bu artım 800 min işçinin maaşının artması deməkdir. Həmçinin ümumi və peşə müəssisələrində çalışan 165 min işçinin və dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda işləyən 4 min nəfərin də maaşı artırıldı.

Azərbaycanda uğurlu sosial siyasət aparılır. Dövlət başçısının imzaladığı yeni sərəncam və fərmanlar əhalinin sosial vəziyyətinin yaxşılaşmasına mühüm töhfədir. Abşeron rayonunun Xırdalan şəhər 2 saylı tam orta məktəbinin 500 nəfərdən ibarət müəllim və texniki işçi heyəti adından cənab Prezidentimizə göstərdiyi yüksək diqqət və qayğıya görə minnətdarlığımızı bildiririk.

**Ədalət CAMALOVA,**
**Xırdalan şəhər 2 saylı tam orta məktəbin direktoru.**

Respublika .- 2021.- 23 dekabr.- S.8.